

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 10 iyul 2026-cı il №45 (3047) https://mod.gov.az Qiyməti 30 qəpik


## Yeni inkişaf mərhələsi Azərbaycanın hərbi qüdrətinin daha da möhkəmlənməsinə xidmət edir

*Azərbaycan Ordusu dövlət müstəqilliyimizin, ərazi bütövlüyümüzün və təhlükəsizliyimizin əsas təminatçısıdır. Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan güclü ordu quruculuğunu dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirdi. Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu müasir ordu quruculuğu strategiyası Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən yeni dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirildi. Nəticədə Azərbaycan Ordusunun maddi-texniki bazası möhkəmləndirildi, şəxsi heyətin peşəkarlığı artırıldı, müasir silah və hərbi texnika ilə təminat gücləndirildi. Bu məqsədyönlü siyasətin ən parlaq nəticəsi 2020-ci ildə qazanılan tarixi Zəfər oldu.*



2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti genişmiqyaslı hərbi təxribatlarına cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. 44 günlük Vətən müharibəsində ordumuz yüksək döyüş ruhu, peşəkar hazırlıq və taktiki üstünlük nümayiş etdirdi. Müxtəlif qoşun növlərinin koordinasiyalı fəaliyyəti, pilotsuz uçuş aparatlarından səmərəli istifadə, xüsusi təyinatlı bölmələrin peşəkarlığı nəticəsində rəşadətli Azərbaycan Ordusu işğal altında olan torpaqlarımızı azad etdi. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Şuşanın azad olunması müharibənin taleyini həll edən əsas məqamlar oldu. Noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanat isə Azərbaycanın hərbi-siyasi qələbəsini tam təsdiqlədi.

Qələbə ilə başa çatan İkinci Qarabağ müharibəsi Azərbaycan Ordusunun inkişafında yeni mərhələnin başlanğıcı oldu. Döyüş əməliyyatları bir daha göstərdi ki, müasir döyüşlərdə yalnız silah üstünlüyü deyil, peşəkar idarəetmə, müasir texnologiyaların düzgün tətbiqi, operativ qərarvermə və qələbə əzminə malik yüksək hazırlıqlı şəxsi heyət həlledici rol oynayır. Məhz buna görə də postmüharibə dövründə həyata keçirilən islahatlar ordunun bütün fəaliyyət istiqamətlərini əhatə edirdi.

**(Ardı 3-cü səhifədə)**

## Şəhidlik - vətənpərvərliyin ən ali məqamı

Vətən sevgisi sözlə ifadə olunan hiss deyil, onu əməlləri ilə sübut edən insanların həyat yoludur. Bu sevgi Vətənə bağlılıq, dövlətə sədaqət, müstəqilliyimiz, ərazi bütövlüyümüz və suverenliyimiz uğrunda canını belə əsirgəməmək deməkdir. Azərbaycanın igid oğulları da bu ülvi hissləri yalnız dillərində deyil, əməllərində yaşadaraq tarix yazıblar. Onların hər biri fərqli taleyə, fərqli həyat yoluna malik olsa da, hamısını bir amal birləşdirirdi - torpaqlarımızın işğaldan azad olunması, Vətənimizin müdafiəsi və xalqımızın təhlükəsizliyi.

Vətənpərvərliyin ən ali məqamı şəhidlikdir, bu zirvə hünər və qeyrət simvoludur. Bu ucalığa yüksələnlərin ömür yolu qısa olsa da, şərəfli və örnəkdir. Hər bir Azərbaycan vətəndaşı qürur mənbəyimiz olan şəhidlərimizi, onların keçdiyi döyüş yolunu, qəhrəmanlıqlarını tanımalı və tanıtmalıdır. Vətən müharibəsində şəhidlik zirvəsinə ucalanların xatirəsini yaşatmaq, onları gəncliyə nümunə göstərmək hər kəsin vətəndaşlıq borcudur. Haqqında danışacağımız belə şərəfli ömür sahiblərinin həyatı, döyüş yolu Vətənə sonsuz sədaqətin, hərbçi şərəfinin və fədakarlığın parlaq nümunəsidir.

**(Ardı 7-ci səhifədə)**

## HHQ-nin aviasiya bölmələrində təlim-məşq uçuşları keçirilib



Müdafiə nazirinin təsdiq etdiyi 2026-cı ilin hazırlıq planına uyğun olaraq Azərbaycan Hərbi Hava Qüvvələrinin aviasiya bölmələrində təlim-məşq uçuşları icra edilib.

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə uçuş heyətinin sağlamlıq vəziyyəti yoxlanılıb, təhlükəsizlik qaydaları çatdırıldıqdan sonra aviasiya vasitələrinə baxış keçirilib.

Sonra təlim-məşq planına əsasən, "JF-17C" (Block-III), "Su-25ML", "Su-25" və "L-39" tipli təyyarələrlə praktiki uçuşlar yerinə yetirilib.

Təlimlərdə pilotlar fərdi və qrup şəklində uçuşlar edərək hava məkanında qarşılıqlı fəaliyyət, şərti döyüş tapşırıqlarının və taktiki manevrlərin icrası, hədəflərin aşkarlanaraq məhv edilməsi, eləcə də xüsusi hallarda düzgün qərar qəbuletmə üzrə bacarıqlarını inkişaf etdiriblər.

Uçuş heyətinin döyüş hazırlığının və peşəkarlığının artırılması məqsədilə keçirilən təlim-məşqlərdə əsas diqqət müxtəlif meteoroloji və taktiki şəraitlərdə tapşırıqların dəqiq və təhlükəsiz icrasına, həmçinin aviasiya vasitələrinin döyüş tətbiqi imkanlarının təkmilləşdirilməsinə yönəldilib.

## “Anadolu Qartalı-2026” beynəlxalq taktiki-uçuş təlimi başa çatıb



Azərbaycan, Misir və Türkiyə hərbi pilotlarının iştirakı ilə Konya şəhərində keçirilən “Anadolu Qartalı-2026” beynəlxalq taktiki-uçuş təlimi başa çatıb.

Müdafiə Nazirliyi xəbər verir ki, təlimdə ölkəmizi təmsil edən Azərbaycan Hərbi Hava Qüvvələrinin uçuş və texniki heyəti, həmçinin Su-25 hücum təyyarələri Vətənə qayıdıb.

Qeyd edək ki, döyüş effektivliyinin, uyarlılığın və birgə tapşırıqların icrasında hərbi qulluqçularımızın nümayiş etdirdiyi peşəkarlıq təlimin rəhbərliyi tərəfindən yüksək qiymətləndirilib.

## Yaşar Güler: Ankaranın təhlükəsizlik arxitekturasından kənarlaşdırılması cəhdləri Avropanın maraqlarına uyğun deyil



Türkiyə Avropa ölkələrinin müdafiə qabiliyyətinə verdiyi töhfələrin artırılmasını alqışlayır. Lakin bu töhfələr NATO ilə rəqabət aparmamalı, əksinə Alyansın imkanlarını gücləndirməlidir.

AZƏRTAC xəbər verir ki, bu barədə Türkiyənin milli müdafiə naziri Yaşar Güler Ankarada keçirilən NATO sammiti çərçivəsində təşkil edilən müttəfiqlər konfransında çıxışı zamanı bildirib.

Türkiyəli nazir Ankaranın Avropa təhlükəsizlik arxitekturasından kənarlaşdırılması cəhdlərini tənqid edib.

O, bu mövqenin Avropanı daha təhlükəsiz etmədiyini iddia edib. “Türkiyə qlobal təhlükəsizlik sistemində güclü iştirakçıdır, əhəmiyyətli hərbi potensiala, inkişaf etmiş müdafiə sənayesinə və əlverişli coğrafi mövqeyə malikdir. NATO Nizamnaməsinin 5-ci maddəsinə (kollektiv müdafiə prinsipi – red.) sadiqliyimiz sarsılmazdır. Türkiyənin siyasi öhdəlikləri etibarlı hərbi güclə dəstəklənir”, - deyə nazir vurğulayıb.

## “Vətəni qorumaq peşəsi hər bir peşədən üstündür və şərəflidir”

“Ordu ölkəmizin, millətimizin, dövlətimizin, müstəqilliyimizin dayağıdır!” fikri Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Ordusuna verdiyi ali dəyərin və dövlətçilik baxışının parlaq ifadəsi oldu. Müstəqil dövlətin təhlükəsizliyinin, suverenliyinin və ərazi bütövlüyünün etibarlı təminatı olan güclü ordunun formalaşdırılması məhz Ulu Öndərin müəyyənləşdirdiyi strateji inkişaf kursuna əsaslanır. Bu gün yüksək peşəkarlığı, müasir silahlanması və döyüş hazırlığı ilə seçilən Azərbaycan Ordusu regionun ən güclü orduları sırasında öz layiqli yerini tutur. Dövlətin hərbi qüdrətinin əsasını isə Vətənə sədaqətlə xidmət edən, mənəvi keyfiyyətlərə və yüksək peşəkarlığa malik zabit heyəti təşkil edir.

Bu siyasət Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyevin “Bizim ordumuz bizim qürurumuzdur. Bizim ordumuz müstəqilliyimizi şərtləndirən amildir. Biz bundan sonra da orduya, ordu quruculuğuna, hərbçilərə olan diqqəti artıracağıq, bu diqqəti göstərəcəyik” fikirləri dövlətin ordu quruculuğunu daim prioritet istiqamət kimi müəyyənləşdirir.

**(Ardı 4-cü səhifədə)**



## Azərbaycan-Türkiyə hərbi əməkdaşlıq məsələləri müzakirə edilib





İyulun 2-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Türkiyə Respublikası Prezident Administrasiyasının Müdafiə Sənayesi Agentliyinin sədr müavini Mustafa Murat Şekerin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyi xəbər verir ki, görüşdə müdafiə naziri ölkələrimiz arasında həyata keçirilən birgə hərbi sənaye layihələrinin ordularımızın müdafiə qüdrətini daha da artıracağından əminliyini ifadə edib.

Göstərilən qonaqpərvərliyə görə general-polkovnik Z.Həsənova minnətdarlığını bildirən cənab M.M.Şeker bu cür görüşlərin qardaş ölkə ilə mövcud hərbi əməkdaşlığın genişləndirilməsində xüsusi rol oynadığını vurğulayıb.

Səfər çərçivəsində nümayəndə heyəti müdafiə nazirinin birinci müavini – Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev ilə görüşüb.

Görüşdə xalqlarımız arasında dostluq və qardaşlıq münasibətlərinin hərbi əməkdaşlığın yüksələn xətlə inkişafına böyük təsir göstərdiyi qeyd olunub.

Keçirilən hər iki görüşdə tərəflər ölkələrimiz arasında hərbi əlaqələrin inkişaf perspektivləri, o cümlədən peyk texnologiyaları, radioelektron mübarizə, insansız sistem və digər sahələrdə süni intellektin tətbiqinə dair ətraflı fikir mübadiləsi aparıblar.

## Müdafiə naziri Baş direktoru və bir qrup hərbi qulluqçunu təltif edib













Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Baş direktoru və bir qrup hərbi qulluqçunu müxtəlif medallarla təltif edib.

Müdafiə Nazirliyi xəbər verir ki, general-polkovnik Z.Həsənovun müvafiq əmrinə əsasən müdafiə nazirinin müavini - Baş direktor Aqil Qurbanov "Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə", general-mayor Elmir İbrahimov "Hərbi xidmətdə fərqlənməyə görə" 1-ci dərəcəli medalı, general-mayor Elnur Kazımov və polkovnik Teymur Məmmədov isə “Şücaətə görə” medalı ilə təltif olunublar.

* * *

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov bir qrup hərbi qulluqçunu təltif edib.

General-polkovnik Z.Həsənovun müvafiq əmrinə əsasən müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin Komandanı, Vətən Müharibəsi Qəhrəmanı general-leytenant Namiq İslamzadə fəxri fərman, Xüsusi Təyinatlı Qüvvələrin komandanı, Vətən Müharibəsi Qəhrəmanı general-mayor Ələkbər Cahangirov isə "Hərbi xidmətdə fərqlənməyə görə" 2-ci dərəcəli medalı ilə təltif olunublar.

## Quru Qoşunlarında əməliyyat təlimi keçirilir







2026-cı ilin hazırlıq planına uyğun olaraq Quru Qoşunlarının rəhbərliyi altında Quru Qoşunlarının hərbi hissələrinin iştirakı ilə irimiqyaslı əməliyyat təlimi keçirilir.

Müdafiə Nazirliyi xəbər verir ki, təlimdə komando, motoatıcı, mexanikləşdirilmiş və artilleriya briqadalarının, təminat hərbi hissələrinin şəxsi heyəti ilə yanaşı səfərbərlik toplanışına cəlb olunan hərbi vəzifəlilər də iştirak edir.

Təlimin ilkin mərhələsində qoşunların döyüşə hazırolma vəziyyətinə gətirilməsi, şəxsi heyətin və texnikanın dəmir yolu vasitəsilə daşınması, hərbi hissələrin avtomobil yolları ilə uzaq məsafələrə, o cümlədən məhdudgörmə şəraitində hərəkəti, əməliyyat və döyüş təyinatı rayonlarının, bilavasitə müdafiə hədlərinin tutulması həyata keçirilib, manevrlər gedişində yüksək təşkilatçılıq nümayiş etdirilib.



Əməliyyat təlimi çərçivəsində eyni vaxtda müxtəlif təlim mərkəzlərində və poliqonlarda hərbi hissələrlə döyüş atışlı taktiki təlimlər və taktiki-xüsusi təlimlər, döyüş atışları keçirilib, təminat tapşırıqları praktiki olaraq işlənib.

Taktiki fəaliyyətlər Vətən müharibəsinin və son dövrlərdə dünyada baş verən silahlı münaqişələrin təcrübəsi nəzərə alınaraq icra edilib, Azərbaycan Ordusunun arsenalında olan müasir pilotsuz uçuş aparatları, radioelektron mübarizə və radiotexniki kəşfiyyat vasitələri, yüksək dəqiqlikli silah sistemləri kompleks şəkildə tətbiq edilib. Hava və radiotexniki kəşfiyyat tapşırıqlarının, praktiki döyüş atışlarının yerinə yetirilməsində şəxsi heyət yüksək peşəkarlıq nümayiş etdirib.

Təlimin gedişində döyüş fəaliyyətlərinin yeni üsul və metodları sınaqdan keçirilib, komandirlərin müstəqil qərar qəbuletmə səriştələri, şəxsi heyətin yüksək dağlıq və meşəlik ərazilərdə, yaşayış məntəqələrində döyüşaparma bacarıqları və çöl vərdişləri təkmilləşdirilib.

İrimiqyaslı əməliyyat təliminin gedişini izləyən Müdafiə Nazirliyinin rəhbər heyəti birləşmə və bölmələrin döyüş fəaliyyətini müsbət qiymətləndirib. Təlimdə qarşıya qoyulan tapşırıqların tam həcmdə icra edildiyi və təlimin məqsədlərinə nail olunduğu qeyd edilib.



# Azərbaycan və İtaliya arasında müdafiə sahəsində əməkdaşlıq perspektivləri müzakirə olunub



İyulun 9-da Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan İtaliyanın Müdafiə Nazirliyinin milli silahlanma direktoru admiral Giacinto Ottavianinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Müdafiə Nazirliyi xəbər verir ki, görüşdə general-polkovnik Z.Həsənov ölkələrimiz arasında strateji tərəfdaşlığa əsaslanan müdafiə sahəsində əməkdaşlığı yüksək qiymətləndirib. Azərbaycan-İtaliya əlaqələrinin bir çox sahələrdə olduğu kimi, hərbi sahədə də xüsusi əhəmiyyətə malik olduğunu vurğulayıb.

Səmimi qəbula və göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirən admiral G.Ottaviani qarşılıqlı səfərlərin və təcrübə mübadiləsinin müstəsna əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb.

Qonaq Azərbaycan və İtaliya arasında hərbi əməkdaşlığın hər iki dövlətin müdafiə qüdrətinin yüksəldilməsinə töhfə verəcəyindən əminliyini ifadə edib.



İtaliya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Luka Di Canfrançesko konun da iştirak etdiyi görüşdə hərbi, hərbi-texniki, hərbi təhsil sahələrində əməkdaşlığa dair qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

# Yeni inkişaf mərhələsi Azərbaycanın hərbi qüdrətinin daha da möhkəmlənməsinə xidmət edir

**(Əvvəli 1-ci səhifədə)**

İlk növbədə, komanda-idarəetmə sistemi daha da təkmilləşdirildi. Döyüş əməliyyatlarında əldə olunan təcrübə nəzərə alınaraq qərargahların fəaliyyəti yenidən təşkil edildi, qoşunların idarə olunması müasir texnologiyalar əsasında təkmilləşdirilib. Rəqəmsal idarəetmə sistemlərinin tətbiqi, rabitə vasitələrinin yenilənməsi, real vaxt rejimində məlumat mübadiləsinin sürətləndirilməsi ordunun əməliyyat imkanlarını əhəmiyyətli dərəcədə artırdı.

Müharibədən sonra həyata keçirilən ən mühüm yeniliklərdən biri komando hərbi hissələrinin yaradılması oldu. Müasir döyüşlərin xarakteri göstərir ki, çevik, yüksək hazırlıqlı bölmələr ordunun əsas zərbə qüvvəsinə çevrilir. Azərbaycan Ordusunda yaradılan komando birlikləri də məhz bu məqsədə xidmət edir.

Komando hərbi hissələrinin şəxsi heyəti xüsusi seçim əsasında formalaşdırılır. Onlar dağlıq ərazilərdə, meşə massivlərində, yaşayış məntəqələrində və mürəkkəb iqlim şəraitində əməliyyatlar aparmaq üçün intensiv hazırlıq keçirlər. Fiziki dözümlülük, psixoloji hazırlıq, taktiki düşüncə, müasir silahlardan peşəkar istifadə və komandada fəaliyyət bacarığı komando hazırlığının əsas istiqamətləridir. Bu bölmələrin yaradılması ordumuzun döyüş imkanlarını keyfiyyətcə yeni mərhələyə yüksəldib.

Komando birləşmələrinin formalaşdırılmasında qardaş Türkiyənin hərbi təcrübəsindən geniş istifadə olunub. Birgə keçirilən kurslar və təlimlər nəticəsində Azərbaycan hərbçiləri müasir döyüş metodlarını mənimsəyərək beynəlxalq standartlara uyğun hazırlıq keçirlər. Hazırda komando bölmələri ordunun ən hazırlıqlı və çevik qüvvələrindən biri hesab olunur.

Azərbycan Ordusunda hərbi təhsil sisteminin yeni mərhələyə qədəm qoyması da mühüm nailiyyətlərdəndir. Milli Müdafiə Universitetinin yaradılması bu istiqamətdə həyata keçirilən ən əhəmiyyətli islahatlardan biri oldu. Universitetin təsis olunması ölkədə hərbi təhsil sisteminin



vahid idarəetmə modelinə keçidini təmin etdi və gələcəyin peşəkar zabitlərinin hazırlanması üçün yeni imkanlar yaratdı.

Milli Müdafiə Universiteti yalnız ali hərbi təhsil müəssisələrinin fəaliyyətini əlaqələndirən qurum deyil, həm də hərbi elmin inkişafını, təhsil sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsini və müasir döyüş təcrübəsinin tədris prosesinə tətbiqini təmin edən strateji mərkəz funksiyasını yerinə yetirir. Burada kursantların nəzəri hazırlığı praktiki məşğələlərlə uzlaşdırılır, müasir silah sistemləri, pilotsuz uçuş aparatları, informasiya texnologiyaları, kibertəhlükəsizlik və hərbi idarəetmə sahəsində biliklər öyrədilir.

Vətən müharibəsində qazanılmış döyüş təcrübəsinin tədris proqramlarına daxil edilməsi gələcək zabitlərin müasir müharibələrin tələblərinə uyğun hazırlanmasına şərait yaradır. Bununla yanaşı, xarici ölkələrin hərbi təhsil müəssisələri ilə əməkdaşlıq genişləndirilir, təcrübə mübadiləsi həyata keçirilir, beynəlxalq təcrübə öyrənilərək yerli təhsil sisteminə inteqrasiya olunur.

Şəxsi heyətin sosial təminatının gücləndirilməsi də dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən olunub. Hərbi qulluqçuların xidmət şəraitinin yaxşılaşdırılması, yeni hərbi şəhərciklərin inşası, yaşayış və məişət problemlərinin həlli, tibbi təminatın və sosial müdafiə tədbirlərinin genişləndirilməsi orduda xidmətin nüfuzunu daha da artırıb. Dövlət tərəfindən şəhid ailələrinə, müharibə iştirakçılarına və döyüş əməliyyatlarında yaralananlara göstərilən diqqət və qayğı dövlət-xalq ordu birliyinin möhkəmlənməsində mühüm rol oynayır.

Vətən müharibəsindən sonra Azərbaycan Ordusunun inkişaf strategiyasında beynəlxalq hərbi əməkdaşlığın genişləndirilməsi əsas prioritet istiqamətlərdən birinə çevrildi. Müasir təhlükəsizlik mühitində orduların döyüş qabiliyyətinin artırılması yalnız daxili resurslarla deyil, həm də qabaqcıl hərbi təcrübənin öyrənilməsi, birgə təlimlərin keçirilməsi və müdafiə sənayesi sahəsində əməkdaşlığın gücləndirilməsi ilə mümkün olur. Azərbaycan da milli maraqlarını əsas götürərək beynəlxalq hərbi əlaqələrini uğurla inkişaf etdirir.

Bu istiqamətdə ən mühüm tərəfdaş, heç şübhəsiz ki, qardaş Türkiyə Respublikasıdır. İki ölkə arasında hərbi əməkdaşlıq uzun illər ərzində formalaşsa da, Vətən müharibəsindən sonra bu münasibətlər keyfiyyətcə yeni mərhələyə yüksəldi. 2021-ci il iyunun 15-də Şuşada Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən imzalanan Şuşa Bəyannaməsi iki qardaş ölkə arasında münasibətləri müttəfiqlik səviyyəsinə qaldırdı. Sənəd müdafiə və təhlükəsizlik sahəsində qarşılıqlı dəstəyi, birgə hərbi fəaliyyətin genişləndirilməsini və regional sabitliyin qorunmasını özündə ehtiva edir.

Şuşa Bəyannaməsinin imzalanmasından sonra Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin birgə təlimlərinin sayı və miqyası daha da artdı. Müxtəlif qoşun növlərinin iştirakı ilə keçirilən taktiki və əməliyyat təlimləri hər iki ordunun qarşılıqlı fəaliyyət imkanlarını gücləndirdi, şəxsi heyətin peşəkarlığının yüksəldilməsinə mühüm töhfə verdi. Bu təlimlərdə müasir döyüş üsulları, pilotsuz sistemlərin tətbiqi, xüsusi əməliyyatların planlaşdırılması və böhran vəziyyətlərində birgə fəaliyyət mexanizmləri təkmilləşdirilir.

Bununla yanaşı, Azərbaycan NATO ilə də əməkdaşlığı uğurla davam etdirir. "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində Azərbaycan hərbçiləri müxtəlif beynəlxalq kurslarda, təlimlərdə və seminar proqramlarında iştirak edir, müasir hərbi idarəetmə və qərargah fəaliyyətinə dair qabaqcıl təcrübəni mənimsəyirlər. Azərbaycan uzun illər beynəlxalq sülhməramlı missiyalarda iştirak etməklə dünya təhlükəsizliyinə öz töhfəsini verib və peşəkar hərbi kadr potensialını daha da zənginləşdirib.

Müasir ordunun gücü yalnız şəxsi heyətin hazırlığı ilə deyil, həm də texnoloji üstünlüklə ölçülür. Bu baxımdan Vətən müharibəsindən sonra Azərbaycan Ordusunun silahlanmasının yenilənməsi və müdafiə sənayesinin inkişafı xüsusi diqqət mərkəzində saxlanılıb. Ordunun arsenalına müasir pilotsuz uçuş aparatları, yüksək dəqiqlikli raket sistemləri, radioelektron mübarizə vasitələri, hava hücumundan müdafiə kompleksləri və yeni nəsil rabitə sistemləri daxil edilib. Bu texnologiyalar döyüş meydanında operativ qərar qəbuletməyə, kəşfiyyat imkanlarını genişləndirməyə və itkiləri minimuma endirməyə imkan verir.

Eyni zamanda, yerli müdafiə sənayesinin inkişafı da mühüm nəticələr verib. Azərbaycanda müxtəlif növ atıcı silahlar, sursatlar, pilotsuz sistemlər və digər hərbi təyinatlı məhsullar istehsal olunur. Yerli istehsalın genişləndirilməsi ordunun təminatında xarici asılılığın azalmasına, müdafiə sənayesinin ixrac potensialının artmasına və milli iqtisadiyyatın inkişafına töhfə verir.

2023-cü ilin sentyabrında həyata keçirilən antiterror əməliyyatı Vətən müharibəsindən sonra aparılan islahatların real nəticəsini bir daha nümayiş etdirdi. Azərbaycan Ordusu qısa müddət ərzində qarşıya qoyulan bütün tapşırıqları yüksək peşəkarlıqla yerinə yetirdi, qanunsuz silahlı birləşmələri tərk-silah etdi və ölkəmizin bütün ərazisində konstitusiya quruluşunun bərpasını təmin etdi. Əməliyyat zamanı mülki əhalinin təhlükəsizliyinin qorunmasına xüsusi diqqət yetirilməsi ordumuzun peşəkarlığını və humanitar hüququn normalarına sadiqliyini bir daha göstərdi.

Güclü ordu güclü dövlətin əsas dayağıdır və Vətən müharibəsindən sonra başlanmış yeni inkişaf mərhələsi Azərbaycanın hərbi qüdrətinin daha da möhkəmlənməsinə xidmət edir. Bu gün Azərbaycan Ordusu təkcə ölkəmizin ərazi bütövlüyünü qoruyan silahlı qüvvə deyil, həm də regionda sabitliyin və təhlükəsizliyin əsas təminatçısıdır. Müasir hərbi texnologiyalar, peşəkar zabit korpusu, yüksək döyüş ruhu və güclü dövlət-xalq-ordu birliyi Azərbaycan Ordusunun əsas üstünlüklərini təşkil edir. Dövlət tərəfindən hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi, xidmət şəraitinin yaxşılaşdırılması istiqamətində atılan addımlar ordumuzun inkişafına verilən diqqətin bariz nümunəsidir.

Azərbaycan Ordusunun Vətən müharibəsindən sonrakı inkişaf yolu göstərir ki, əldə olunan tarixi Zəfər məqsədyönlü dövlət siyasətinin, peşəkar ordu quruculuğunun məntiqi nəticəsidir. Müasir texnologiyaların tətbiqi, peşəkar kadr hazırlığı, beynəlxalq təcrübənin mənimsənilməsi və milli müdafiə potensialının davamlı şəkildə gücləndirilməsi ordumuzun gələcək inkişafının əsas istiqamətlərini təşkil edir. İnanırıq ki, müasir çağırışlara uyğun həyata keçirilən islahatlar, müdafiə qabiliyyətinin daha da gücləndirilməsi və hərbi təhsilin davamlı inkişafı Azərbaycan Ordusunun qüdrətini gələcək illərdə də artıracaq. Güclü dövlətin əsas dayağı olan güclü ordu bundan sonra da ərazi bütövlüyümüzün və suverenliyimizin keşiyində inamla dayanacaq, Azərbaycanın milli maraqlarını qətiyyətlə qoruyacaq.

**Kapitan
Günay TAĞIYEVA
"Azərbaycan Ordusu"**

# “Vətəni qorumaq peşəsi hər bir peşədən üstündür və şərəflidir”







(Əvvəli 1-ci səhifədə)

Bu məqsədyönlü siyasətin tərkib hissəsi olaraq Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən xüsusi təyinatlı təhsil müəssisələrində müasir hərbi təhsil sistemi formalaşdırılıb, peşəkar hərbi kadrların hazırlanması keyfiyyətcə yeni mərhələyə yüksəlib. Hərbi təhsil sistemində atılan uğurlu addımların nəticəsidir ki, bu gün gənclər arasında hərbi peşəyə maraq daha da artıb. Hərbi təhsil ocaqlarında təhsil alan gənclərlə yanaşı, digər ali təhsil müəssisələrini bitirən yüzlərlə gənc həyatlarını orduya bağlamaq üçün mütəmadi təşkil olunun “Ehtiyat zabit hazırlığı kursu”nda iştirak edərək, ixtisaslarına uyğun vəzifələr üzrə təhsil alaraq xidmətə təyin olunurlar.



Heydər Əliyev adına Hərbi İnstitutda “Ehtiyat zabit hazırlığı kursu”nun növbəti buraxılış mərasimi keçirildi.

Əvvəlcə Milli Müdafiə Universitetinin rəhbərliyi institutun ərazisində ucaldılan Ulu Öndər Heydər Əliyevin büstünü və şəhidlərimizin xatirə abidəsini ziyarət etdi, önünə gül dəstələri düzərək, onların əziz xatirəsini ehtiramla yad etdi.

Zabit və müəllim heyətinin iştirakı ilə davam edən mərasimdə Ümummilli Lider Heydər Əliyevin və Vətən uğrunda canını fəda etmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olundu, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Tədbirdə çıxış edən Milli Müdafiə Universitetinin rektoru general-mayor Gündüz Əbdülov məzunları “Ehtiyat zabit hazırlığı kursu”nu bitirmələri münasibətilə Müdafiə Nazirliyinin rəhbərliyi adından təbrik etdi, onlara gələcək xidməti fəaliyyətlərində uğurlar arzuladı. General-mayor G.Əbdülov bildirdi ki, kursu uğurla başa vuran məzunların buraxılış mərasimində iştirak etməkdən böyük məmnunluq duyur. “Hər birinizi səmimi-qəlbdən təbrik edirəm. Əziz məzunlar! Bu gün həyatınızın ən məsuliyyətli və şərəfli mərhələlərindən birinə qədəm qoyursunuz. Sizə təqdim olunan "leytenant" hərbi rütbəsi yalnız bir fərqlənmə nişanı deyil. Bu rütbə Vətən qarşısında məsuliyyətin, zabit ləyaqətinin, liderlik keyfiyyətinin və Hərbi Anda sədaqətin rəmzidir. Bu gündən etibarən Siz Azərbaycan Ordusunun zabitlərinin sıralarına qoşularaq yüksək etimada layiq görülürsünüz. Azərbaycan Ordusunun banisi Ümummilli Lider Heydər Əliyev deyirdi: "Ordu dövlətin dayağı, xalqın qüdrətidir". Məhz Ulu Öndərin əsasını qoyduğu ordu quruculuğu siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir”.

Sonra kurs birincisi leytenant Məhəmməd Həsənov məzunlar adından çıxış edərək “Ehtiyat zabit hazırlığı kursu”nu uğurla başa vurduqları üçün böyük şərəf və qürur duyduqlarını bildirdi: “İlk növbədə, bizə göstərilən yüksək diqqət və qayğıya, yaradılmış təhsil şəraitinə, qazandığımız bilik və bacarıqlara görə dövlətimizin, Müdafiə Nazirliyinin, Milli Müdafiə Universitetinin rəhbərliyinə, Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzinin komandir və müəllim heyətinə dərin minnətdarlığımızı bildiririk. Bu gün layiq görüldüyümüz “leytenant” hərbi rütbəsi bizim üçün sadəcə nailiyyət deyil, həm də böyük etimadın və yüksək məsuliyyətin ifadəsidir. Biz bu etimadı daim doğruldacağımıza, Azərbaycan zabitinin şərəfli adını uca tutacağımıza, üzərimizə düşən vəzifələri layiqincə yerinə yetirəcəyimizə, Hərbi Anda sadiq qalacağımıza və Vətənə vicdanla xidmət edəcəyimizə söz veririk. Kurs müddətində bizə aşılanan bilik, intizam və zabit keyfiyyətləri gələcək xidmət yolumuzun möhkəm təməli olacaq. Əminik ki, qazandığımız bilik və təcrübəni Azərbaycan Ordusunun daha da gücləndirilməsi naminə layiqincə tətbiq edəcəyik. Biz torpaqlarımızın ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olan silahdaşlarımızın qəhrəmanlıq yolunu şərəflə davam etdirmək üçün əlimizdən gələni əsirgəməyəcəyik. Bu şərəfli yolda hər kəsə uğurlar arzulayır, kurs yoldaşlarım adından bildirirəm ki, şanlı Azərbaycan Ordusunun sıralarında Azərbaycan Respublikasına sədaqətlə xidmət edəcəyik”.

Tədbirin sonunda “Ehtiyat zabit hazırlığı kursu”nu uğurla başa vuran məzunlara “leytenant” hərbi rütbələri, müvafiq sertifikatlar təqdim olundu. Kursun təşkili və keçirilməsində səmərəli fəaliyyət göstərənlər fəxri fərmanlarla təltif edildi.

Buraxılış mərasimi iştirakçılarının xatirə şəkli çəkdirməsi ilə davam etdi. Tədbir boyunca Azərbaycan Ordusunda peşəkar zabit kadrlarının hazırlanmasına göstərilən dövlət qayğısının nəticələri bir daha öz əksini tapdı. Məzunlar qazandıqları bilik, bacarıq və zabit məsuliyyəti ilə gələcək xidmət yerlərində Vətənə layiqincə xidmət edəcəklərinə əmin olduqlarını bildirdilər. Beləliklə, növbəti “Ehtiyat zabit hazırlığı kursu”nun buraxılışı Azərbaycan Ordusunun müdafiə qüdrətinin daha da gücləndirilməsi istiqamətində həyata keçirilən ardıcıl fəaliyyətin uğurlu nəticələrindən biri kimi yadda qaldı.

Tədbirin rəsmi hissəsi başa çatdıqdan sonra məzunlarla həmsöhbət olduq, onların təəssüratlarını öyrəndik.

Kurs ikincisi leytenant Nahid Gülmalıyev Vətənə xidmət etməyin onun üçün böyük qürur olduğunu vurğuladı: “Qalib Azərbaycan Ordusunun sıralarında xidmət etmək mənim üçün böyük qürur və sevinc hissidir. Kurs müddətində əldə etdiyim bilik və bacarıqlar mənə zabit peşəsinin nə qədər şərəfli və məsuliyyətli olduğunu bir daha göstərdi. Kursu ikinci yerdə başa vurmağım gələcək xidmətimdə daha böyük nailiyyətlər qazanmaq üçün mənə əlavə stimul verir. Artıq həyatımın yeni mərhələsi başlayır və bu mərhələ üzərimə daha böyük məsuliyyət və öhdəliklər qoyur. Zabit kimi əsas amalım hər zaman Vətənə sədaqətlə xidmət etmək, Hərbi Anda sadiq qalmaq və Azərbaycan Ordusunun hərbi qulluqçusu adına layiq olmaqdır. Ali Baş Komandanın və ordu rəhbərliyinin qarşıya qoyduğu tapşırıqların yerinə yetirilməsində üzərimə düşən vəzifələri layiqincə icra etməyə hazıram. Bu böyük missiyanın bir parçası olmaqdan qürur duyuram. İnanıram ki, biz də yüksək peşəkarlığa, möhkəm iradəyə və Vətən sevgisinə malik hərbçilərdən olacaq, ordumuzun döyüş qabiliyyətinin daha da artırılması istiqamətində səylə xidmət edəcəyik”.





Kurs üçüncüsü leytenant Fərid Qurbanov isə hərbçi peşəsinin bütün peşələrdən üstün olduğunu qeyd etdi: “Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dediyi kimi, Vətəni qorumaq peşəsi hər bir peşədən üstündür və şərəflidir. Hərbçi peşəsi yüksək vətənpərvərlik, dəmir intizam, fiziki və psixoloji dözümlülük tələb edir. Bu şərəfli peşə hərbi qulluqçudan Vətənə sədaqət, ekstremal vəziyyətlərdə düzgün qərar qəbul etmək bacarığı və yüksək məsuliyyət tələb edir. Vətənimizin keşiyində dayanmaq və xalqımızın əmin-amanlığına xidmət etmək müqəddəs vəzifələrdir. Bu şərəfli yolda addımlamaq, qalib Azərbaycan Ordusunun sıralarında xidmət etmək mənim üçün böyük fəxrdir. Vəzifə borclarımın öhdəsindən uğurla gəlib, bizə olan etimadı doğrultmaq üçün bütün məsuliyyətimlə və var gücümlə çalışacağam”.

Zabit olmağın sevincini yaşayan daha bir gənc leytenant Seyfəddin Cəfərov düşüncələrini bildirdi: “Mən də qürurluyam ki, kursu uğurla başa vurub “leytenant” hərbi rütbəsi aldım. Hərb peşəsi xalqımızın ən çox rəğbət bəslədiyi peşələrdəndir. Bu sevgi isə bizim köklərimizdən gəlir. Bizim zəngin hərb tariximiz və tarixdə silinməz izlər qoyan hərbi xadimlərimiz olub. İndi isə ataların yolunu layiqincə davam etdirən igid və mərd oğullarımız Vətənimizin keşiyində inamla dayanırlar. Biz də qürurlanırıq və sevinirik ki, biz şərəfli peşə sahiblərindən oluruq. Bu gün müasir və qalib Azərbaycan Ordusu regionun ən güclü ordusudur. Qalib ordunun sıralarında xidmət etmək isə həm şərəflidir, həm də ikiqat məsuliyyətlidir. Öz üzərimizdə daim çalışacaq, müəllimlərimizin, komandirlərimizin aşıladığı hərbi bilik və bacarıqlardan düzgün istifadə edib, ordumuzun adına layiqli, peşəkar zabitlər olmaq üçün qətiyyətlə xidmətimizi davam etdirəcəyik. Doğulub boya-başa çatdığım Kəngərli rayonunda və qohumlarım arasında hərbçilər çoxdur. Onların peşələrinə sədaqəti, sevgisi məni də ovsunlayırdı. Qəlbimdə hərbçi olmaq istəyi formalaşmışdı. 44 günlük Vətən müharibəsi gedəndə biz orta təhsil alırdıq. Hərə özünə bir yol seçmişdi, müxtəlif ali məktəblərə qəbul olmaq üçün hazırlaşırdıq. Müharibənin başlaması, torpaqlarımızın azad olunması, Ali Baş Komandanın qələbə xəbərləri çoxları kimi, mənim də düşüncələrimə təsir etdi və artıq o istəyim arzuya, məqsədə dönmüşdü. Qəbul olunduğum ali təhsil ocağını bitirib müddətli həqiqi hərbi xidmətə yollandım. Xidmətimi uğurla davam etdirib, “Ehtiyat zabit hazırlığı kursu”nda iştirak etmək üçün komandanlığa müraciət etdim. Bu gün hamı kimi sevinirəm ki, arzuma çatmışam. Müstəqil dövlətimizin və qalib Azərbaycan Ordusunun banisi, Əbədiyaşar Komandan Heydər Əliyevin dediyi "Zabit olmaq, hərbi vəzifə daşımaq gənclərimizin ən müqəddəs vəzifələrindən biri olmalıdır" sözlərini hər birimiz birmənalı şəkildə yaxşı dərk edir və bu kəlamı öz xidmət yolumuzun işığı bilirik.

(Ardı 6-cı səhifədə)



Tarix yazan oğullar

# Göy üzünə köçən arzular

*Bəzən qəhrəmanları və qəhrəmanlığı uzaqlarda axtarırıq. Qəhrəmanlıq bizim üçün o qədər uca məfhumdur ki, o zirvəyə yalnız "xüsusi seçilmişlər qalxa bilər", - deyə düşünmüşük hər zaman. Doğrudanmı belədir? Bəlkə hər gün gördüyün, fərqinə varmadığın, salamlaşıb keçdiyin, bəzən səni uşaqlığın məsumluğundan doğan hərəkətləri ilə güldürən, bəzən hirsləndirən, əl uzadanda çata bildiyin qonşu uşaqlarıdır qəhrəman?! Həyat sübut etdi ki, küçədə futbol oynayan, palçıqdan ev düzəldən, şıltaqlıqla qonşu Sənəm nənənin tut ağacını "talan" edən, bəlkə də ən nadinc uşaq olan, heç bir xüsusiyyəti ilə diqqət çəkməyən dünənin körpələrindən dosta qürur, düşmənə göz dağı, başımızın ucalığı olan, şücaətləri ilə dillərə dastan minlərlə Vətən fədaisi yetişdi. Onlara baxıb düşünürsən ki, xoşbəxt insanlarıq ki, belə övladların gəzdiyi torpaqda gəzmiş, udduqları havanı udmuş, hamısını olmasa da, bəzilərini yaxından tanımaq şansına sahib olmuşuq...*



Biz bir küçədə yaşayırdıq. Onun uşaqlıq illəri yaddaşımda xoş, səmimi xatirələrlə canlanır. Hər səhərimiz bir-biri ilə gülər üzlə salamlaşan, hal-əhval tutan mehriban qonşularımızla görüşdən başlanardı. Kimi işə gedər, kimi məktəbə uşaq aparar, kimi də evdəkiləri yola salmağa çıxardı. Biz hamımız bir ailə kimi idik. Dərdimizə şərik çıxar, sevincimizi paylaşardıq. Asifgillə yaxınlıqda yaşayırdıq. Asifin dünyaya gəlişi ilə gənc yaşda valideynlik sevincini dadmaq qismət olmuşdu ata-anasına. Küçəmizin sonbeşiyi idi. Böyüməyi, ilk addımları, dil açmağı, məktəbə getməyi, ata-anasının arxasınca su atıb, doluxsunaraq əsgəri xidmətə yola salınmağı hələ də gözlərimin önündədir. Elə bil hər şey dünən olub. Gülər üzü, şirin danışığı, nəzakətli davranışı ilə hamımızın sevimlisinə çevrilmişdi. İpə-sapa yatmayan uşaqlığı vardı. Yayın qızmar istisində belə bir yerdə qərar tutmayan, dəcəlliyi ilə anasını hövsələdən çıxaran Asif indi necə səssiz-səmirsiz baxır. Bu durğunluğunu sənə heç yaraşdırmadım, oğul!

...Hamımızın həyatını dəyişdirən, sevincimizlə kədərimizi eyni anda yaşadığımız, qürurlandığımız, həyəcanlandığımız, kövrəldiyimiz o bazar səhəri. Qazandıqlarımız və itirdiklərimiz. Müharibənin dəhşətli üzü də budur. İliyinədək səni sızıldadan, qanına, canına işləyən şəhid anasının fəryadı müharibənin bir üzü, o şəhidin Vətən üçün, sənin üçün canını fəda edərək azadlığı qazanması və göz yaşını silib bunun fəxarətini, sevincini yaşanan müharibənin digər üzü! Nə ürəkdən sevinə bilirik, nə də kədərə tam tabe ola bilmirdik. Çünki körpə fidanlarımız müqəddəs amal uğrunda əbədiyyətə qovuşmuşdular. Şəhid xəbərləri gəlməkdə davam edirdi. Qara xəbərin ünvanı olmur, bu xəbər bizlərin də qapısını döydü. Bir gün işdən evə qayıdanda Asifgilin qapısında insanların yığışdığını gördüm. Yaşlılar məyus baxışlarla ətrafı süzür, cavanlar əllərində bayraq göz yaşlarına hakim ola bilmir, qadınlar ağı deyirdilər. Anlamaq çətin deyildi, o atəşdən bizim də ocağımıza düşmüşdü. Hamı Asifi gözləyirdi. Ucalardan uca məqamı ilə yaman gözlədirdi hamını. Quş qanadında uçub doğma ocağından pərvazlanan Asif, nədənsə çox ağır dönürdü evinə, onu həsrətlə gözləyən anasına, yükün ağırlığından beli bükülmüş, ancaq hələ də dik durmağa çalışan atasına, yolda izdihamın önündə dayanan nigaran qardaşlarına. Bitməyən saatlar, dəqiqələr, saniyələr... İlahi, vaxt necə asılıb havada qala bilərmiş?! Budur, maşınlar göründü, Asif gəlir, şəhid adına layiq hörmətlə bayrağa bükülüb gəlir! Nə gəliş o gəlişdi, nə duruş o duruş. Ətrafa mehribançılıq saçan gülərüz çöhrəsini, qamətli yerişini, səsli-küylü söhbətlərini gözlərimin önündə canlandırmağa çalışıram – olmur. Bu nə səssiz gəlişdir belə... İndi gəlib hamı ilə bir-bir salamlaşacaqsan, biz səni sorğu-suala çəkəcəyik, bir az qürurla, bir az sevinclə cavab verəcəksən, anan Şərafəti qucaqlamağa tələsəcəksən, atan Kərim alnından öpüb saçlarını oxşayacaq, qardaşların qürurla yanı-başında gəzişəcəklər... Nə deyim sənə ey fələk! Nə istədin arzularımızdan, ümidlərimizdən?! İndi bu gəlişi, bu gedişi necə izah edəcəyik övlad yolu gözləyən ata-anaya?!

...Asif evinə döndü, "dincini aldı", böyüdüyü, şirin xatirələrlə dolu evini, hüznlü baxışları ilə ətrafdakıları yasa boğan atasını, ağlayanlara müəmmalı baxan anasını (Asif ağır yaralanıb gətirirlər demişdilər ona), hələ olub bitəni bütün çılpaqlığı ilə dərk etməyə macal tapmayan qardaşlarını, qohum-qonşunu son dəfə gördü, vidalaşdı və əbədiyyətə qovuşmaq üçün onu əzizlərindən həmişəlik ayıran son mənzilinə doğru yola çıxdı. Bu an bir yandan bir ailənin faciəsi, bir yandan Vətən dediyimiz səcdəgahın qürur anı idi, çünki "Torpaq qanla suvarılanda Vətən olur", - deyiblər atalar. Vətən yolunda canından keçən, bir nəfəsdə gəncliyi solan şəhid balalarımızın qəhrəmanlıq dastanına bir həyat hekayəsi də əlavə olunurdu bu an, Asifin yarım qalmış, 19 ilə sığan, bir ömrə bədəl, sona qədər yazılmamış kədərlə, qürurla dolu həyat hekayəsi... Ağır olsa da, onu sizə anlatmağı özümə borc bildim.

Əslən Cəbrayıldan olan ailənin qismətinə qaçqınlığın məşəqqətli günlərini dadmaq düşmüşdü. Düşmən tərəfindən işğal olunan səfalı yurdlarını qoyub gəlmək məcburiyyətində qalan Ataşov qardaşları ailə-uşağı yerləşdirəndən sonra geri dönürlər, canlarından çox sevdikləri torpaqlarının müdafiəsi üçün könüllü olaraq döyüşlərə qatılırlar. Qeyri-bərabər savaşda qardaşların biri dəfələrlə yaralanmasına baxmayaraq müalicədən sonra geri - yoldaşlarının yanına qayıdır. Təminat cəhətdən üstün olan erməni silahlı birləşmələri ilə savaşda nizami ordusu, vahid komandanlığı olmayan könüllü özünümüdafiə dəstələrimiz yenilirdilər. Siyasi hərcmərclikdən istifadə edən düşmən ard-arda torpaqlarımızı ələ keçirirdi. Məğlubiyyətlə barışmaq çətin olsa da, reallığı dəyişmək mümkün olmadı. Yurdyuvalarından qovulan qardaşlar Xırdalan şəhərində məskunlaşdılar. İllər ötdü, Vətən həsrəti qəlblərini göynətsə də, həyat davam edirdi, bir gün düşməndən hesab sormaq üçün yaşamaq, çalışmaq lazım idi. Beləcə, zaman keçdi və bir aprel səhəri böyük qardaş Kərim Ataşovun ailəsində ilk övlad dünyaya gəldi. Hamı sevinir, onlara gözaydınlığı verirdi. Kim haradan biləydi ki, dünyaya göz açan oğul məhz atasının, əmilərinin tamamlanmamış işini sona çatdırmaq üçün vaxt gələcək şəhadətə imza atacaq. Asif Kərim oğlu Ataşov 2002-ci il aprelin 10-da doğuldu. Xırdalan şəhəri 2 nömrəli tam orta məktəbin 11-ci sinfini 2019-cu ildə bitirdi. Arzuları vardı, ali təhsil almaq istəyirdi, ciddi hazırlaşırdı. İmtahanlardan yüksək bal toplaya bilmədiyindən istədiyi ixtisası seçə bilmədi. Lakin ümidini itirmədi. Şərafət ana doluxsunaraq danışır: "Dedi ki, ana, əsgəri xidmətdən qayıdım, yaxşı hazırlaşıb yenidən sənədlərimi ali məktəbə verərəm. Uşaqlıqda çox dəcəl olsa da, böyüdükcə dəyişmişdi. Ailədə təmkinli, diqqətcil, məktəbdə hamı ilə mehriban, müəllimlərinə hörmətlə yanaşan, məsuliyyətli oğlan olmuşdu (müəllimlərinin və sinif yoldaşlarının onun haqqında xatirələri də bu sözlərdə öz təsdiqini tapır). Çox vaxt fikirli halda pəncərə qarşısında dayanıb uzaqlara baxar, sükutunun səbəbini soruşanda deyərdi: "İnşallah, mən xidmətdə olanda müharibə başlayar və biz torpaqlarımızı azad edərik. Ürəyimə damıb, o günü görməyi Allah bizə nəsib edəcək!"

Asif 2020-ci ildə hərbi xidmətə yola düşdü. "N" hərbi hissəsində xidmətini yerinə yetirirdi. Cəldliyi, çevikliyi və nümunəvi davranışı ilə komandirlərinin hörmətini qazanmışdı. Hərbin sirlərini həvəslə öyrənirdi və komandirləri tərəfindən təşəkkürnamə ilə təltif olunmuşdu. "Zəng edəndə həmişə razılıq edirdi. Deyirdi narahat olmayın, mən yaxşıyam, hər şey qaydasındadır. Hələ döyüşlər gedirdi, zəng etdi, halallaşdı. Nə biləydim ki, səsini sonuncu dəfə eşidirəm. Bir az çox danışdırardım onu", - deyən Şərafət ana kövrəlir.

Asif 5 ay idi ki, Qarabağ bölgəsində xidmət edirdi. Ata-baba torpağında xidmət keçmək xüsusi qürur verirdi ona. Hər zaman ayıq-sayıq idilər. Son zamanlar daha çox azğınlaşan düşmən isə öz mənfurluğundan əl çəkmirdi, atəşkəsi tez-tez pozur, mülki əhalini hədəfə alır, infrastruktura ziyan vururdu. Ermənistan silahlı qüvvələrinin bölmələri təmas xətti boyunca mövqelərimizə və yaşayış məntəqələrimizə intensiv artilleriya zərbələri endirdi. Bu təxribata cavab olaraq beynəlxalq hüquqa və özünümüdafiə hüququna əsaslanaraq, Ali Baş Komandan əks-hücum əməliyyatına başlama əmrini verdi. Xalqımızın torpaq həsrəti, intiqam hissi ilə tüğyan edən qəlbini titrədən tarixi gün gəldi. Minlərlə oğulun əlinə silah alıb Vətən uğrunda döyüşə getdiyi, dövlət-xalq-ordu birliyinin dəmir yumruğa çevrildiyi, Azərbaycanın gələcəyini azadlıqla taclandıran və öz ocağımızda, yurdumuzda əbədi yaşamaq hüququnu bərqərar edən, milli mənsubiyyətindən asılı olmayaraq qəlbində Vətən sevgisi daşıyan igidlərin qisas günü gəlib çatdı. Hamı kimi, Asif də bu günü çoxdan gözləyirdi. Bu günün möhtəşəmliyində, aliliyində onun da payı olacaqdı. Ancaq hələ ki, qızğın döyüşlər gedir, düşmən evimizi qarış-qarış tərk edirdi. Asif topçu idi, yoldaşları ilə ermənilərin mövqelərini, texnikasını və istehkamlarını uzaq məsafədən uğurla məhv edərək, yüksək fiziki dözümlülük nümayiş etdirir, düşmənə aman vermirdilər. Ailəsi ilə qısa danışır, hər şeyin yaxşı olacağını deyirdi. Səsi inamlı gəlirdi, qarış-qarış əbədi və əzəli torpaqlarımızda irəliləyirdik və bu qayıdışa Asifin də töhfəsi var idi, arzusuna çatmışdı, atasının, əmilərinin layiqli davamçısı idi. Artıq anasının Birinci Qarabağ müharibəsində şəhid olmuş əmisi Zahid Kamran oğlu Talıbovun da qisasının alınmasına az qalmışdı və bu üzdən sevincli idi. Onu irəlidə çox qələbələr gözləyirdi. Şad xəbəri özü deyəcəkdi evlərinə, o xoş anı xəyalında canlandıraraq səbirsizlənirdi... Min bir arzu ilə, Vətən eşqi ilə dolu barıt qoxulu mülayim payız günləri bir-birini əvəz edirdi. Oktyabrın 1-i idi. Tərtər istiqamətində ağır döyüşlər gedirdi. Asifgilin top heyətini bacarıqlarına görə xüsusi seçmişdi komandirləri. Asifin komandiri Arif Həsənlinin dediklərindən: "Düşmənin snayperi döyüşçülərimizə hərəkət etməyə imkan vermirdi. Həmin nöqtənin susdurulması barədə əmr aldıq. Asifgilin heyəti tapşırığı müvəffəqiyyətlə yerinə yetirdi və silahdaşlarımız irəliləməyə başladılar. Onlar cəsurluqla vuruşurdular".

Birdən yer-yerindən oynadı, günəşin üzü qara dumandan görünməz oldu, Barıt tüstüsü, tozduman bir-birinə qarışdı, nəfəs almaq çətinləşirdi. Asifgilin topunu vurdular. "Asifgilin topu vurulanda hadisə yerindən 20 metr aralıda idim. Tez oraya qaçdım ki, heç olmasa birini xilas edim. Topun yerləşdiyi səngərdə 45 mərminin hamısının partlaması məni qonşu səngər tərəfə atdı. Özümə gələndə artıq gec idi – şəhid olmuşdular", – qəhərlənərək Arif Həsənli xatırlayır.

Həmin gün, oktyabrın 1-i səhərüzü yenə ananın yuxusuna gəlmişdin. Qapıdan baxıb, sorğusuz-sualsız, üz çevirib çıxıb getmisən. Axşamüstü isə atangil şəhadət xəbərini alıblar.

(Ardı 6-cı səhifədə)

# Göy üzünə köçən arzular

(Əvvəli 5-ci səhifədə)

Bu bir təsadüf, ya taleyin oyunu idimi, bilmirəm. Əsrarəngiz dünyanın dadını çıxarmadan pəncərəsindən baxıb nakam getdiyin kimi... Görəsən, həmin an nələr keçdi ürəyindən? Arzuna çatmışdın. Vətənin dar günündə, sənə ehtiyac olan anda mərdliklə övladlıq borcunu yerinə yetirdiyinmi, qazanılan o böyük Zəfərdə sənin də payının olduğunumu, sənin kimi oğulların qanı hesabına qazanılan qələbənin sevincinimi, evə döndüyün gününü canlandırdın xəyalında?! Bəlkə bir anlıq çatmadığın arzularına heyifsiləndin, sevdiyinə söz verib geri dönə bilmədiyinəmi üzüldün?! Nələr düşündün?! Yarım qalmış taleyinəmi incidin yoxsa... İncimə, oğul! Sən könüllərdə taxt quran, şərəflə, fəxarətlə dolu bir yolun yolçusu idin artıq, minlərlə şəhid olmuş döyüş yoldaşın kimi. Bu yol səni zirvələrə daşıyacaq, əbədiyaşar edəcək, tarixi Zəfərimizin simvoluna çevirəcək. Sən qələbənin carçısı, Vətənin özü idin artıq. Gəzdiyin torpaq, udduğun hava, içdiyin su halalın olsun! Bəlkə də istedadlı rəssam (rəssamlığa həvəsi vardı), yaxşı mütəxəssis olacaqdın, bəlkə neçə səhifələr bəzəyəcəkdi ömür kitabını, kim bilir? Sən isə ölməzliyi seçdin, "fırçanla" əbədi həyatın özünü çəkdin yer üzündə. Özün isə arzularını da götürüb baxdıqca doymadığın mavi səmanın ənginliklərinə köç etdin. Bundan sonra səni göy üzündəki mələklərin qoruyacağına əminəm. Azad Azərbaycanda yetişən gələcək nəsil sənin açdığın cığırla addımlayacaq, canın bahasına ərməğan etdiyin qalibiyyəti milli-mənəvi sərvətimiz kimi qoruyub saxlayacaq, vətənpərvər qəlbin hər birimizin yoluna əbədi məşəl olub işıq saçacaqdır...




Küçəmizdə xatirəni əbədiləşdirmək üçün Şəhid bulağı inşa edilib. Tez-tez ata-ananı orada görürəm, şəklinə baxır, sanki səninlə dərdləşirlər, bulaq başında əkilmiş çiçəkləri sulayırlar. Tər güllərin heç əskik olmur, onları gənclər gətirirlər sənə, ömürlük ehtiramın təcəssümü olaraq. Şəklinin yanındakı lövhədə qəhrəmanlığının göstəriciləri sıralanır.

Dövlətimiz tərəfindən cəsarətin layiqli qiymətini almış, şəhadətindən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Ağdamın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə" medallarına layiq görülmüsən. Yazı hazırlanan ərəfədə isə Azərbaycan Respublikası Prezidentinin 25 iyun 2026-cı il tarixli Sərəncamına əsasən 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunmusan... Şəhid yoldaşlarının rəsmləri şəkillərini əhatələyir. Sizlərə baxdıqca Xalq yazıçısı Anarın sözlərini xatırlayıram: "Ölüm həyatın inkarı yox, təsdiqidir". Onun tamlığı, tamamlığıdır. Sizin tamamlanan həyatınız, bütövləşən dünyanız qarşısında baş əyirik! Amalınıza sadiq qalacağımıza, ümidlərinizi doğruldacağımıza, bütöv Azərbaycanımızı qoruyacağımıza and içirik! Həzrəti Məhəmməd Peyğəmbər (s.ə.v.) deyib: "Cənnətə ilk girən şəxs şəhid olacaq". Cənnətin mübarək, şəhidim! Sayənizdə elinə, obasına qovuşmuş, cənnətə çevrilən Qarabağın laləli düzlərindən əsən yellər əbədi ana laylanız olsun!

**Sevinc QULİYEVA**
**"Azərbaycan Ordusu"**

*Həftənin fotosu*

# Gələcəyə aparan addımlar




Bəzən bir foto yalnız müəyyən bir anı əks etdirmir, bütöv bir hekayəni danışır. O, sözlərin ifadə etməkdə çətinlik çəkdiyi hissləri, zəhməti, qüruru, məsuliyyəti və Vətənə xidmət ruhunu bir baxışda oxucuya çatdırır. Hərbi xidmətin müxtəlif məqamlarını, şəxsi heyətin gündəlik fəaliyyətini, təlim prosesini, peşəkarlığını, birlik və həmrəyliyini əks etdirən kadrlar zamanın yaddaşına çevrilərək gələcək nəsillər üçün dəyərli salnamə yaradır. "Həftənin fotosu" rubrikasında təqdim olunan hər bir şəkil də məhz bu baxımdan xüsusi əhəmiyyət daşıyır. O, bir həftənin ən yaddaqalan anını, Azərbaycan Ordusunun gücünü, hərbi qulluqçuların fədakarlığını və xidmətə sadiqliyini obyektivin dili ilə oxucuya çatdırır.

Bu gün Azərbaycan Ordusunun qazandığı uğurların əsasında Ümummilli Lider Heydər Əliyev tərəfindən təməli qoyulan müasir ordu quruculuğu siyasəti dayanır. Milli ordunun formalaşdırılması, peşəkar kadr hazırlığı və hərbi təhsilin inkişafı istiqamətində həyata keçirilən tədbirlər həmin siyasətin mühüm tərkib hissəsi olub. Bu siyasi kurs bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Son illər həyata keçirilən ardıcıl islahatlar, hərbi təhsil sisteminin müasir standartlara uyğun təkmilləşdirilməsi və şəxsi heyətin peşəkarlığının artırılması ordumuzun döyüş qabiliyyətinin daha da yüksəlməsində mühüm rol oynayıb. Azərbaycan Ordusunun gücü və peşəkarlığı 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfərlə bütün dünyaya nümayiş etdirildi.

Məhz bu siyasətin nəticəsi olaraq hərbi təhsil müəssisələri peşəkar zabit və gizirlərin hazırlanmasına mühüm töhfə verir. Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Bakı Hərbi Kollecində keçirilən ikinci buraxılış mərasimi də bunun bariz nümunəsidir. Burada məzun olan gənclər aldıqları bilik və bacarıqları gələcək xidmətlərində tətbiq edərək Azərbaycan Ordusunun sıralarında şərəflə xidmət etməyə hazır olduqlarını nümayiş etdirirlər.

Müasir dövrdə güclü ordu müasir silahlarla yanaşı, yüksək intellektə malik şəxsi heyətlə formalaşır. Bu gün hərbi qulluqçu üçün döyüş hazırlığı qədər texnologiyaları dərindən mənimsəmək, innovativ düşünmək və mürəkkəb mühəndislik həllərini tətbiq etmək də vacib keyfiyyətlərdəndir. Rəqəmsal texnologiyaların sürətlə inkişaf etdiyi bir dövrdə hərbi təhsil müəssisələrinin kursantları da bu yeniliklərin fəal iştirakçısına çevrilərək gələcəyin çağırışlarına hazır olduqlarını nümayiş etdirirlər.

"World Robot Caspian Cup 2026" yarışında iştirak edən Milli Müdafiə Universitetinin komandaları bunun əyani nümunəsini ortaya qoyublar. Robotexnika, pilotsuz sistemlər, süni intellekt və mühəndislik sahələrində keçirilən yarış gənclərin nəzəri biliklərini praktik bacarıqlarla birləşdirilməsinə imkan yaradıb. Bakı Hərbi Kollecini təmsil edən "Zəfər" komandasının FPV dron kateqoriyasında III yerə layiq görülməsi və beynəlxalq mərhələyə vəsiqə qazanması kursantların yüksək hazırlıq səviyyəsini bir daha təsdiqləyib.

Bu uğurun arxasında aylarla davam edən hazırlıq prosesi, dəqiq hesablamalar, saysız sınaqlar və güclü komanda işi dayanır. Belə yarışlar iştirakçılarda həm texniki bilikləri, həm də analitik düşünmə, çevik qərarvermə, məsuliyyət hissi və qarşılıqlı əməkdaşlıq bacarıqlarını da inkişaf etdirir. Məhz bu xüsusiyyətlər müasir hərbi mütəxəssisin formalaşmasında mühüm rol oynayır.

Milli Müdafiə Universitetində hərbi təhsil ilə yanaşı, innovasiya və elmi-tədqiqat fəaliyyətinə də xüsusi diqqət ayrılır. Müasir texnologiyalara əsaslanan tədris yanaşmaları kursantların gələcəyin döyüş mühitinə uyğun hazırlanmasına xidmət edir. Bu gün əldə edilən uğurlar sabah Azərbaycan Ordusunun texnoloji üstünlüyünün təmin olunmasına töhfə verəcək bilikli və peşəkar hərbi mütəxəssislərin yetişdirildiyini göstərir.

Fotoda yanaşı dayanan bu gənclər Azərbaycan hərbi təhsilinin inkişafını, elmlə hərb arasında qurulan möhkəm əlaqəni və ölkəmizin gələcəyə yönəlmiş strateji baxışını təcəssüm etdirirlər.

Elmin və texnologiyanın hərbə gətirdiyi bu uğuru tamamlayan digər bir kadr isə bizi hərbi təhsilini uğurla başa vuran məzunların buraxılış mərasiminə aparır. Obyektivimizə yansıyan növbəti fotoda diqqəti ilk cəlb edən ən təsirli məqam ananın oğlunu səmimi bağrına basması, illərlə çəkilən zəhmətin bəhrəsi olaraq həmin anda sevinc göz yaşlarına çevrilməsidir. Ətrafda yüzlərlə insan var. Musiqi səslənir, alqışlar eşidilir. Ancaq ana üçün bütün bunlar arxa planda qalır. Onun baxışları yalnız oğlundadır. İllərlə böyüdüb boya-başa çatdırdığı övladı bu gün həyatının ən qürurlu günlərindən birini yaşayır. Ananın üzündəki təbəssüm, gözlərindəki kövrəklik və oğlunu möhkəm köksünə sıxması sözlə ifadəsi çətin olan hissləri əks etdirir. Bu, ayrılığın deyil, qürurun və sevincin ifadəsidir. Çünki o bilir ki, övladı bu gündən etibarən dövlətin ona göstərdiyi yüksək etimadı doğrultmaq, Vətənə şərəflə xidmət etmək üçün yeni bir həyata qədəm qoyur.



Bu sevinc təkcə bir ailənin sevinci deyil, tədbirdə iştirak edən hər bir valideynin simasında bənzər hisslər oxunur. Onlar övladlarının qazandığı uğurla fəxr edir, gələcəyinə böyük inamla baxırlar. Məzun günü təhsil mərhələsinin başa çatması həm də Vətən qarşısında şərəfli xidmət yolunun başlanğıcıdır. Hər bir məzunun arxasında ailəsinin zəhməti, müəllimlərinin əməyi və dövlətin yaratdığı geniş imkanlar dayanır.

Mərasimdə çəkilən hər bir foto gələcək üçün qiymətli xatirədir. Xüsusilə ana ilə oğlunun bir-birinə sarıldığı bu an təkcə bir ailənin sevincini deyil, Azərbaycan Ordusuna yeni qoşulan gənc nəslə bəslənilən ümidləri, valideynlərin qürurunu və Vətənə xidmət amalını özündə birləşdirir.

Bəzən bir qucaqlaşma uzun illərin zəhmətini və böyük qüruru ifadə etməyə kifayət edir. Bu kadr da məhz həmin duyğuların ən səmimi təcəssümüdür.

**"Azərbaycan Ordusu"**

# "Vətəni qorumaq peşəsi hər bir peşədən üstündür və şərəflidir"



(Əvvəli 4-cü səhifədə)

Söz veririk ki, dövlət və dövlətçiliyimizə sadiq olacaq, müqəddəs vəzifələrimizin öhdəsindən müvəffəqiyyətlə gələcək, Ali Baş Komandanın hər bir döyüş tapşırığına daim hazır olacağıq".

Azərbaycan Ordusunda yaradılan yüksək şərait, müasir maddi-texniki təminat və keyfiyyətli təhsil sistemi ordumuzun daim inkişaf etdiyini göstərir. Hər il həyata keçirilən yeniliklər ordunun döyüş qabiliyyətini daha da artırır. Müasir texnologiyaların tətbiqi və peşəkar hərbi kadrların hazırlanması ölkəmizin müdafiə gücünü möhkəmləndirir. Hərbi qulluqçularımızın sosial rifahına göstərilən diqqət onların xidmətə məsuliyyətini artırır. Ordumuzun qazandığı uğurlar dövlətimizin bu sahəyə verdiyi önəmin nəticəsidir. Bütün bunlar gənclər arasında hərb peşəsinə marağın daha da artmasına səbəb olmuşdur. "Leytenant" hərbi rütbəsi alan gənclərin qürur dolu baxışları bir daha sübut etdi ki, onlar müstəqil və qüdrətli dövlətimizin əsas dayaqlarından biri olan rəşadətli ordumuzda şərəflə, qətiyyətlə xidmət edəcəklər. "Ehtiyat zabit hazırlığı kursu"nu bitirən məzunlarımızı ürəkdən təbrik edir, onlara çətin və bir o qədər də şərəfli vəzifələrində uğurlar arzulayırıq.

**Baş leytenant**
**Əli ABIYEV**
**"Azərbaycan Ordusu"**

*Heç kim unudulmur*

# Şəhidlik - vətənpərvərliyin ən ali məqamı



(Əvvəli 1-ci səhifədə)

Onları birləşdirən daha bir məqam isə hər birinin iyul ayında dünyaya göz açmalarıdır. Fərqli illərdə doğulsalar da, ömürlərini Azərbaycanın müdafiəsinə həsr edib, 44 günlük Vətən müharibəsində göstərdikləri igidliklə adlarını tariximizə yazdırıblar.

* * *

Şəhid mayor **Tofiq Kərimov** uzun illər Azərbaycan Ordusunda müxtəlif məsul vəzifələrdə xidmət edib, Vətən müharibəsində ön cəbhədə döyüşərək canını Azərbaycanın müstəqilliyi və torpaqlarının azadlığı uğrunda fəda edib. Onun xidməti və döyüş yolu Vətənə sədaqətin, zabit şərəfinin və hərbi peşəkarlığın parlaq nümunəsidir.

Tofiq Kərimov 1973-cü il iyulun 7-də Bakı şəhərində anadan olub. 1990-cı ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul olub. 1990-1993-cü illərdə həmin təhsil ocağında təhsil alıb. Daha sonra Bakı Ali Birləşmiş Komandanlıq Məktəbində (indiki Heydər Əliyev adına Hərbi İnstitut) təhsilini davam etdirib.

44 günlük Vətən müharibəsində mayor T.Kərimov döyüş əməliyyatlarının ən gərgin günlərində tabeliyində olan şəxsi heyətlə birlikdə ön xəttə çıxaraq qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsində böyük fədakarlıq göstərib.

2020-ci il noyabrın 6-da Şuşa şəhəri istiqamətində gedən döyüşlər zamanı düşmənin açdığı atəş nəticəsində qəhrəmancasına şəhid olub. Şuşa uğrunda gedən həlledici döyüşlərdə canından keçən mayor Tofiq Kərimov Vətənə sədaqətin ən ali zirvəsi olan şəhidlik məqamına ucalıb. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən Tofiq Kərimov ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni, "İgidliyə görə", "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Mayor Tofiq Kərimov ömrünü Azərbaycan Ordusuna həsr edən, peşəkarlığı, vətənpərvərliyi və yüksək zabit məsuliyyəti ilə seçilən hərbçilərdən biri idi. Onun keçdiyi şərəfli xidmət yolu və döyüş meydanında göstərdiyi igidliklər bugünkü və gələcək nəsil hərbçilər üçün örnək olaraq qalır. Vətən uğrunda canından keçən zabitin əziz xatirəsi xalqımızın yaddaşında daim ehtiramla yaşayacaq.

* * *

Hələ gənclik illərindən torpaq həsrəti, Qarabağ nisgili ilə yaşayan, Azərbaycanın ərazi bütövlüyü uğrunda Ali Baş Komandanın döyüş əmrini səbirsizliklə gözləyən oğullarımızdan biri də mayor **Vidadi Əhmədovdur**. Təcrübəli zabit Aprel döyüşlərinin də fəal iştirakçısı olub. O, ordudan tərxis olunmasına baxmayaraq, 44 günlük Vətən müharibəsi başlayanda döyüşənlərin sırasına geri dönüb.

Şəhid mayor Vidadi Əhmədov 12 iyul 1979-cu ildə Salyan şəhərində doğulub. 1996-cı ildə Salyan şəhər 1 saylı tam orta məktəbi başa vurub, sənədlərini Bakı Ali Birləşmiş Komandirlər Məktəbinə (indiki Heydər Əli-



yev adına Hərbi İnstitut) təqdim edib. Hərbçi olmaq, Vətənin müdafiəsində dayanmaq, Azərbaycanın ərazi bütövlüyünü qorumaq, hərbi mundir geyinmək arzularını reallaşdırıb. O, xüsusi təyinatlı təhsil müəssisəsinin fəal kursantlarından biri olub. Nəzəri, təcrübi biliklərini daim artırıb. Keçirilən məşğələlərdə, təlimlərdə hərbi vərdişlərə dərindən yiyələnib. Şərəfli peşə yolunda uğurla addımlayıb, Vətənə şərəflə xidmət edib. Aprel döyüşlərinin iştirakçısı olan mayor Vidadi Əhmədov 20 illik qüsursuz xidmətdən sonra Azərbaycan Ordusu sıralarından tərxis olunub.

İkinci Qarabağ müharibəsi başlayandan iki gün sonra Vidadi də təcrübəli zabit kimi Füzuli istiqamətində gedən ağır döyüşlərdə iştirak edib. Füzulinin Qaraxanbəyli kəndi uğrunda gedən döyüşlər onun son döyüşü olub. Düşmənin atdığı top mərmisinin partlayışı nəticəsində aldığı qəlpə yarasından şəhidlik məqamına ucalıb. Vətənpərvər zabit oktyabrın 12-də Salyan rayonunda dəfn edilib. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə şəhid mayor Vidadi Əhmədov ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda", "İgidliyə görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

* * *

Vətən müharibəsində Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşərək şəhidlik zirvəsinə yüksələn zabitlərimizdən biri də baş leytenant **Elçin Ağayev** olub. Hərb sənətinə gənc yaşlarından bağlanan, peşəkar hazırlığı və döyüş bacarığı ilə seçilən Elçin Ağayev xidmət etdiyi bütün illər ərzində üzərinə düşən vəzifələri layiqincə yerinə yetirib. Vətən müharibəsi başlayanda isə ön sıralarda döyüşərək torpaqlarımızın işğaldan azad olunması uğrunda gedən döyüşlərdə canını fəda edib.

Elçin Ağayev 1993-cü il iyulun 7-də Cəlilabad rayonunda anadan olub. Orta təhsilini 2010-cu ildə Cəlilabad rayonunun Günəşli kəndində V.Niftullayev adına 1 nömrəli orta məktəbdə başa vurub. Hərbçi olmaq qarşısına məqsəd qoyan Elçin təhsilini indiki Heydər Əliyev adına Hərbi İnstitutda davam etdirib. Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində müvafiq təkmilləşdirmə kursunu bitirərək xidmətə başlayıb. Xidmət etdiyi müddətdə əzmkarlığı, hərbi nizam-intizamı və komandirlik bacarığı ilə seçilib. 2020-ci il oktyabrın 5-də Tərtər rayonunun Talış kəndi istiqamətində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub. Döyüş meydanında nümayiş etdirdiyi şücaət, mübarizlik və cəsarət onun Vətənə sədaqətinin və Hərbi Anda sadiqliyinin ən parlaq təzahürü olub. Ərazi bütövlüyümüzün təmin edilməsi uğrunda gedən döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası za-



manı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə ölümündən sonra “Vətən uğrunda”, “İgidliyə görə”, “Suqovuşanın azad olunmasına görə” və “Laçının azad olunmasına görə” medalları ilə təltif edilib.

* * *

Qəhrəmanlıq salnaməsinə dönən oğullardan biri də şəhid gizir **Rufiz Budaqov** 1977-ci il iyulun 12-də Ordubad rayonunun Tivi kəndində anadan olub. Azərbaycan Ordusunun giziri olan Rufiz Budaqov 2020-ci il sentyabrın 27-də başlayan İkinci Qarabağ müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak edib. Bu istiqamətdə gedən ağır döyüşlər zamanı qəhrəmancasına şəhid olub.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üz-



rə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi igidliyə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən Rufiz Budaqov ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

* * *

Şanlı Zəfərimizi tarixin səhifələrinə öz qanları ilə həkk edən, bu müqəddəs yolda canından keçərək şəhidlik zirvəsinə ucalanlardan biri də gizir **Niyaməddin Ələkbərovdur**. Niyaməddin İsrafil oğlu Ələkbərov 1989-cu il iyulun 12-də Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunda anadan olub. 2011-ci ildə Naxçıvan Dövlət Universitetinin “Jurnalistika” fakültəsinə qəbul olunsa da, bir neçə ay sonra təhsilini yarımçıq qoyub könüllü olaraq müddətli həqiqi hərbi xidmətə yollanıb. Xidmət müddəti başa çatdıqdan sonra ordu sıralarında xidmətini davam etdirib. Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində müvafiq kursu müvəffəqiyyətlə bitirdikdən sonra “gizir” hərbi rütbəsi ilə xidmətə başlayıb. Xidmət etdiyi müddətdə motoatıcı və kəşfiyyat bölmələrində müxtəlif vəzifələrdə çalışaraq peşəkar kəşfiyyatçı kimi formalaşıb. 44 günlük Vətən müharibəsinin ilk günündən döyüşlərə başlayan N.Ələkbərov bir neçə post və yüksəkliyin düşməndən təmizlənməsində birbaşa iştirak edib, döyüş tapşırıqlarının icrasında



igidlik göstərib. O, oktyabrın 2-də düşmənin minaatan zərbəsi nəticəsində şəhidlik zirvəsinə yüksəlib. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən Niyaməddin Ələkbərov ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilib.

* * *

İşğalda olan torpaqlarımızı geri qaytararaq bizlərə Qələbə sevinci bəxş edən, bu yolda canından, qanından keçən igid Vətən oğullarından biri də şəhid gizir **Xəyal Cəfərlidir**. Xəyal Xəlil oğlu Cəfərli 1992-ci il iyulun 9-da Salyanın Qaraçala qəsəbəsində anadan olub. Uşaq yaşlarından vətənpərvərliyi və igidliyi ilə seçilib. Xəyal orta təhsilini başa vurduqdan sonra müddətli həqiqi hərbi xidmət keçib. Daha sonra müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətini davam etdirib. Nümunəvi xidməti və bacarığı ilə seçilən Xəyal daha sonra Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində “Gizir hazırlığı” kursunu uğurla bitirərək “gizir” hərbi rütbəsinə layiq görülüb. Xəyal Vətən müharibəsində ön sıralarda döyüşüb.



Döyüş tapşırıqlarını peşəkarlıqla və qətiyyətlə yerinə yetirən gizir X.Cəfərli 2020-ci il oktyabrın 22-də Füzuli rayonu istiqamətində gedən döyüşlər zamanı şəhadətə yüksəlib.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında iştirak edərək igidlik və mərdlik göstərmiş, hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirərək şəhid olmuş gizir Xəyal Cəfərli Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni, “Cəsur döyüşçü”, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Mövludları eyni ərəfəyə düşən şəhidlərimiz müxtəlif hərbi hissələrdə, müxtəlif vəzifələrdə xidmət etsələr də, eyni amal uğrunda - Azərbaycanın ərazi bütövlüyünün, və suverenliyinin bərpası naminə döyüşüblər. Bu müqəddəs amal uğrunda şücaət, peşəkarlıq və fədakarlıq göstərərək şəhidlik zirvəsinə ucalıblar. Bu gün onların xatirəsi ehtiramla yad edilir, keçdikləri şərəfli döyüş yolu isə gənc nəslə Vətən sevgisinin, sədaqətin və əsl hərbçi ləyaqətinin ən parlaq nümunəsi kimi təqdim olunur.

**Şəlalə CAMAL**
**Bakı şəhəri**

## Beynəlxalq reytinqi ilk 500-cü sırada yer alan xarici ali təhsil müəssisələrinin məzunları olan çağırışçıların nəzərinə




Azərbaycan Respublikası Müdafiə Nazirliyində hərbi xidmətkeçmə ilə bağlı müvafiq konsepsiyaya əsasən, hərbi xidmətdə olan yüksək intellektə malik istedadlı hərbi qulluqçular hərbi xidmətlərini Milli Müdafiə Universitetinin tərkibində yaradılmış bölmələrdə xüsusi şəraitdə davam etdirirlər.

Həmin hərbi qulluqçular qeyd edilən bölmələrdə öz ixtisaslarına uyğun müxtəlif layihələrə və fəaliyyətlərə cəlb olunurlar.

Cari təqvim ilindən əvvəlki təqvim ilinin nəticələrinə görə beynəlxalq reytinqi (“Times Higher Education (THE) World University Rankings” və ya “Academic Ranking of World Universities” (Shanghai)) ilk 500-cü sırada yer alan xarici ali təhsil müəssisəsinin bakalavriat və ya magistratura proqramlarının məzunları olan çağırışçıların həmin intellektual qabiliyyətli bölmələrdə xidmət etmələri nəzərdə tutulmuşdur.

Hazırda Müdafiə Nazirliyinin tabeliyindəki hərbi hissələrdə xidmət keçən, yuxarıda qeyd olunmuş siyahılarda yer alan xarici təhsil müəssisələrində təhsil almış hərbi qulluqçuların adıçəkilən bölmələrdə xidmət etmələrini təmin etmək məqsədilə onların ailə üzvlərindən 31.07.2026-cı il tarixədək aşağıda qeyd olunan məlumatları **intel_unit@mmu.edu.az** elektron ünvanına göndərmələri xahiş olunur:

- çağırışçının adı, soyadı və ata adı;
- çağırış rübü və ili (çağırıldığı tarix);
- Xarici dövlətlərin təhsil müəssisələrində ali təhsil almış şəxslərin ixtisaslarının Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA) tərəfindən tam tanınmasına (akademik və peşə) dair sənəd (PDF formatında) və ya tanınma prosesinin başlamasına dair sistemdən çıxarış.

Qeyd olunan kateqoriyaya aid çağırışçıların intellektual qabiliyyətli bölmələrdə xidmətə cəlb edilməsi Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanlarında 600 və daha yüksək bal toplamış çağırışçılarla eyni layihə çərçivəsində həyata keçirilir. Bu səbəbdən, qəbul imtahanlarında 600 və daha yüksək bal toplamış şəxslər aidiyyəti dövlət qurumları ilə qarşılıqlı məlumat mübadiləsi əsasında müəyyən edildiyindən, onların ailə üzvləri tərəfindən əlavə müraciət edilməsinə ehtiyac yoxdur.

**Qeyd**: Növbəti çağırışlarda Müdafiə Nazirliyinin tabeliyindəki hərbi hissələrdə xidmətə başlayacaq, yuxarıda qeyd olunan kateqoriyaya aid olan çağırışçıların intellektual bölmələrdə xidmət etmələrinin təmin edilməsi məqsədilə müvafiq məlumatların onların ailə üzvləri tərəfindən çağırış ayı müddətində **intel_unit@mmu.edu.az** elektron ünvanına göndərilməsi xahiş olunur.

### *Hərbi terminlər*

# Eşelon



Qədim dövrlərdən bəri müharibələrin taleyini təkcə döyüşçülərin sayı deyil, həm də onların döyüş meydanındakı düzülüşü, nizamı və hərəkət taktikası həll edib. Budur, müasir hərb elminin, hərbi strategiya və taktikanın ən təməl sütunlarından biri olan eşelon anlayışı. Bəs eşelon nədir? Bu söz hərfi tərcümədə "nərdivanın pilləsi" mənasını verir. Hərbi kontekstdə isə bu termin qoşunların, hərbi texnikanın, aviasiya qruplarının və ya təminat karvanlarının sadəcə bir xətt üzrə deyil, dərinliyinə doğru, müəyyən intervallarla, pilləli şəkildə düzülüşünü ifadə edir. Bu, ordunun gücünü tək bir nöqtədə sıxışdırıb tükətmək əvəzinə, ehtiyat qüvvələri zamanlama ilə döyüşə daxil etmək sənətidir. Gəlin bu mürəkkəb görünən taktikanın reallıqda necə işlədiyinə birlikdə nəzər salaq. Təsəvvür edin ki, irimiqyaslı bir hücum əməliyyatı planlaşdırılır. Əgər bir komandan əlindəki bütün qüvvəni, bütün tankları və piyadaları eyni anda, tək bir xətt halında irəli yeridərsə, bu, hərbi cinayət sayılar. Məhz bu səbəbdən hərbi zəka işə düşür və qoşunlar eşelonlaşdırılır. Hücum əməliyyatlarında qüvvələr adətən birinci, ikinci və üçüncü eşelonlara, həmçinin ümumi ehtiyat qüvvələrə bölünür. Hər bir eşelonun özünəməxsus, dəqiq hesablanmış döyüş tapşırığı və zamanlaması olur. Döyüşün və əməliyyatın ilkin taleyini həll edən əsas zərbə qüvvəsi birinci eşelondur. Onlar düşmənin ön xətt müdafiə səddini yarmaq, ilkin sarsıdıcı zərbəni vurmaq və qələbənin cığırını açmaq üçün irəli atılırlar. Döyüşün bütün ağırlığı, gərginliyi və düşmənin ilk müqaviməti məhz birinci eşelonun çiyinlərinə düşür. Onlar tankları, zirehli texnikaları və hücum taborları ilə düşmən səngərlərinə ilk daxil olan qüvvələrdir. Lakin ən güclü hücum belə bir müddətdən sonra zəifləyə, qüvvələr yorula bilər. Bax, bu böhran anında meydana ikinci eşelon daxil olur. Onlar birinci eşelonun bir az gerisində tam hazır vəziyyətdə gözləyirlər. Birinci eşelon düşmən müdafiəsində yarıqlar açan kimi, ikinci eşelon yeni qüvvə ilə həmin nöqtələrdən içəri sızır. Onların vəzifəsi düşmənin müdafiəsini dərindən darmadağın etmək, qazanılan uğuru genişləndirmək və əməliyyatı yekun zəfərə daşımaqdır.

Müasir hərb elmində eşelon anlayışı təkcə quru qoşunlarının taktikası ilə məhdudlaşmır. Bu termin Hərbi Hava Qüvvələrində də həyati, strateji əhəmiyyət daşıyır. Aviasiyada eşelonlaşma – təyyarələrin və helikopterlərin havada bir-biri ilə toqquşmaması, həmçinin döyüş tapşırığını təhlükəsiz və koordinasiyalı yerinə yetirməsi üçün təyin olunan xüsusi hündürlük intervallarıdır. Göy üzündə hər bir qırıcı qrup, hər bir hava eskadrilyası özünə ayrılmış hündürlük eşelonunda, yəni öz görünməz pilləsində hərəkət edir. Bu, hava məkanında mütləq intizam və təhlükəsizlik deməkdir. Eyni zamanda, bu termin ordunun maddi-texniki təminatının və logistikasının da əsasını təşkil edir. Cəbhə xəttinə silah, sursat, yanacaq, canlı qüvvə və ağır hərbi texnika daşıyan bütöv bir dəmir yolu qatarı və ya böyük nəqliyyat karvanı hərbi dildə "Logistik eşelon" adlanır. Göründüyü kimi, döyüş meydanında qələbə kor-təbii hücumların və ya təsadüflərin deyil, dərin hərbi strategiyanın və nizamın nəticəsidir. Zamanı saniyəsinə qədər hesablamaq, qoşunlar və texnikanı eşelonlar üzrə idarə etmək sərkərdəlik məharətinin ən ali zirvəsidir. Şanlı Azərbaycan Ordusunun zəfər salnaməsində, istər 44 günlük Vətən müharibəsində, istərsə də digər uğurlu əməliyyatlarda qazanılan böyük qələbələrin arxasında məhz bu dəqiq hərbi hesablamalar, savadlı logistika və dəqiq eşelonlaşma prinsipləri dayanır.

**Hazırladı:**
**Emil MURADLI**
**“Azərbaycan Ordusu”**

# İdman



### Azərbaycan cüdoçuları Avropa Kubokunu 9 medalla tamamlayıblar

Çexiyanın paytaxtı Praqada gənc cüdoçular arasında keçirilən Avropa Kuboku başa çatıb. Yarışın ikinci günündə yığmamız aktivinə 8 medal yazdırıb.

Mehdi Abbasov (81 kq) və Ramazan Əhmədov (+100 kq) bütün rəqiblərinə qalib gələrək qızıl medal qazanıblar. Cəsur İbadlı (81 kq), Canpolad Əliyev (100 kq) və Nərgiz Əhmədova (48 kq) yarışı gümüş medalla başa vurublar. Süleyman Şükürov (90 kq), Davud Namazlı (100 kq) və Xədicə Qədəşova (57 kq) isə bürünc mükafat əldə ediblər. İlk yarış günündə Əbil Yusubov (73 kq) gümüş medal qazanıb.

Beləliklə, Azərbaycan millisi Praqa Avropa Kubokunu 2 qızıl, 4 gümüş və 3 bürünc olmaqla, ümumilikdə 9 medalla tamamlayıb. Yekun nəticələrə əsasən yığmamız 33 ölkə arasında ümumi komanda hesabında üçüncü, oğlanların mübarizəsində isə birinci yeri tutub.



### Yunan-Roma güləşi üzrə Azərbaycan millisi Avropa çempionatını 5 medalla başa vurub

Yunan-Roma güləşi üzrə Azərbaycan millisi Şimali Makedoniyanın paytaxtı Skopyedə keçirilən U-20 Avropa çempionatını 5 medalla başa vurub.

Yarışın 3-cü günündə Ayxan Cavadov (60 kq) rumıniyalı Draqos Draqaya 6:1, Elmin Əliyev (82 kq) isə macarıstanlı Sabolç Sinaya 8:0 hesabı ilə qalib gələrək fəxri kürsünün 3-cü pilləsinə yüksəliblər.

Roman Kərimov (67 kq) təsəlliverici görüşlərdə litvalı Eymantas Andriuska (9:0) və moldovalı Maksim Damaşinə (10:0) qalib gəlib. Həmyerlimiz bürünc medal uğrunda qarşılaşmada isə rusiyalı Amir Sovmizə 2:6 hesabı ilə məğlub olaraq 5-ci yerlə kifayətlənib.

Beləliklə, Azərbaycanın yunan-Roma güləşi millisi qitə birinciliyini 1 qızıl, 2 gümüş və 2 bürünc medalla başa vurub. Daha əvvəl Emin Cavadlı (55 kq) qızıl, Cavidan Nehmətovla (77 kq) Orxan Hacıyev (87 kq) isə gümüş mükafata sahib çıxıb.

**AZƏRTAC-ın materialları əsasında**

# Xəbərlər: hadisələr, faktlar



### Qazaxıstanda 120-dən çox desantçı paraşütlə tullanış həyata keçirib

Qazaxıstan ordusunun Konayev qarnizonunun desant-hücum briqadasının hərbi qulluqçuları “Novoiliskoye-Cənub” meydanında paraşütlə tədris-təlim tullanışları yerinə yetiriblər.

Qazaxıstan Respublikası Müdafiə Nazirliyi xəbər verir ki, desant tullanışı təlimində ümumilikdə 120-dən çox hərbi qulluqçu iştirak edib.

Diqqətçəkən məqam ondan ibarətdir ki, onların təxminən 100 nəfəri həqiqi xidmət keçən hərbi qulluqçudur. Desant tullanışı təlimi Mi-17 helikopterlərindən 800 metr hündürlükdən həyata keçirilib. Enişdən dərhal sonra şəxsi heyət taktiki normaların yerinə yetirilməsinə başlayıb.

Döyüşçülər uçuşlardan əvvəl ixtisaslaşdırılmış tədris kompleksində hava-desant hazırlığının tam kursunu keçiblər. Müdafiə Nazirliyindən bildirilib ki, hava-desant hazırlığı Desant Qoşunlarının döyüş hazırlığının əsas elementlərindən biridir, həmçinin hərbi qulluqçuların psixoloji dayanıqlığını və istənilən çətin şəraitdə tapşırıqları yerinə yetirməyə hazırlığını formalaşdırır.

### CNN: ABŞ-nin İrana qarşı zərbələri bir müddət davam edəcək



ABŞ hərbi qüvvələrinin İrana qarşı hücumlarının bir müddət davam edəcəyi bildirilir.

CNN telekanalı bunu ABŞ rəsmisinə istinadla yayıb.

Mənbənin sözlərinə görə, ABŞ-nin həyata keçirdiyi zərbələr “mütənasib cavab” deyil, “cəza tədbiri” xarakteri daşıyır. O qeyd edib ki, əməliyyatlar müəyyən müddət davam edəcək.

Xatırladaq ki, bundan əvvəl ABŞ Mərkəzi Komandanlığı İranın Hörmüz boğazında gəmilərə hücum etdiyi iddia edilən hadisələrə cavab olaraq İrana qarşı bir sıra zərbələr endirildiyini açıqlamışdı.

**AZƏRTAC-ın materialları əsasında**

Mayor Həsənov Nadir Həsən oğluna verilmiş MN № 0047084 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

2-ci dərəcəli kapitan Əliyev Emin Fərman oğluna verilmiş MN № 0049876 nömrəli şəxsi vəsiqə blankı itdiyi üçün etibarsız sayılır.

Miçman Bəxşiyev Teymur Paşa oğluna verilmiş SQ № 0024849 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Abdullayev Ruslan Oqtay oğluna verilmiş SX № 0863791 nömrəli hərbi bilet itdiyi üçün etibarsız sayılır.

Hüseyinli Fədail Şükür oğluna verilmiş MV № 117158 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

| Redaktor | Telefon | Ünvanımız | Qəzetin hesabı | | Növbətçi | |
| --- | --- | --- | --- | --- | --- | --- |
| mayor Ceyhun CƏFƏRLİ | Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatı üzrə növbətçisi: (012) 404-76-22 | Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi | 2 saylı xəzinədarlıq Kod: 200189 VÖEN: 1500444791 | “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz. | Bəxtiyar ƏLİYEV | Lisenziya № 361 Sifariş № 647 Nüsxə 3653 |